No: 04 2025
https://doi.org/10.64400/ea25-4-19
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

**HÜQUQ VƏ SİYASİ ELMLƏR**

# AZƏRBAYCAN RESPUBLİKASI İLƏ İSRAİL DÖVLƏTİ ARASINDAKI MÜNASİBƏTLƏRDƏ SİYASİ-HƏRBİ ƏMƏKDAŞLIĞIN ROLU

**Ceyhun SƏİDOV**
Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:ceyhun20021981@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 05.12.2025*
*Nəşr edilmə tarixi: 22.12.2025*

**AÇAR SÖZLƏR:**
Azərbaycan, İsrail, strateji tərəfdaşlıq, siyasi maraqlar, hərbi-sənaye kompleksi, hərbi-texniki əməkdaşlıq, Cənubi Qafqaz.

**XÜLASƏ**
Məqalədə Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında mövcud olan hərbi-siyasi münasibətlərin mahiyyəti, bu əlaqələrin formalaşmasına təsir edən amillər və xüsusən cənub qonşumuz olan İran İslam Respublikasının bu münasibətlərə olan təsiri və reaksiyası araşdırılıb. 44 günlük müharibənin və Rusiya-Ukrayna müharibəsinin regionda yaratdığı geosiyasi dəyişikliklər, həmçinin 2021-ci ildə İran və Azərbaycan arasında yaşanan gərginlik kontekstində İranın sərhəddə keçirdiyi hərbi təlimlərin, sərt siyasi bəyanatların və Azərbaycan - İsrail münasibətlərinə qarşı yönəlmiş ittihamların təhlili aparılıb.
Həmçinin məqalədə Azərbaycan-İsrail münasibətləri iki ölkə arasındakı diplomatik əlaqələr, bu əlaqələrin qurulmasında hər iki tərəfin maraqları və hərbi-texniki əməkdaşlıq kontekstində nəzərdən keçirilmiş, bu münasibətlərin gələcək perspektivləri və ehtimal olunan inkişaf istiqamətləri proqnozlaşdırılmışdır.

## GİRİŞ

Zəngin təbii ehtiyatlara, Xəzər dənizinə çıxış imkanına malik olan Azərbaycanın insan resursları, iqtisadi və hərbi potensialı da nəzərə alınmaqla apardığı uğurlu xarici siyasət sayəsində 21-ci əsrdə Cənubi Qafqazda rəsmi Bakı əsas strateji oyunçuya çevrilib. Beynəlxalq sistemdə baş verən dəyişikliklər, İkinci Qarabağ və Ukrayna-Rusiya müharibəsi, Yaxın Şərqdəki son hadisələrin fonunda Azərbaycan Respublikasının rolu regional və beynəxalq aktor kimi artmaqdadır. Rəsmi Bakı ilə əməkdaşlığın qonşularla yanaşı regiona aid olmayan dövlətlərin də diqqətini cəlb etməsi Azərbaycanın yaranmış bu əlverişli şəraitdən öz nüfuzunu artırmaq, digər dövlətlərlə qarşılıqlı faydalı ikitərəfli və çoxtərəfli əlaqələrin qurulmasında bacarıqla istifadə etməsinə möhkəm zəmin yaradır. Cənubi Qafqazda və ona qonşu olan regionlarda baş verənlər müasir dünyada təhlükəsizlik məsələlərinin aktuallığınının vacibliyini göstərməklə yanaşı rəsmi Bakını müasir hərbi silahlara çıxış imkanı əldə etməyə, dost və müttəfiq ölkələrlə strateji və hərbi-texniki əməkdaşlıq qurmağa, mövcud əlaqələri isə daha dərinləşdirməyə sövq edir. Qeyd edilən bu məsələlərdə Türkiyə Respublikası ilə yanaşı İsrail Dövləti də Azərbaycan Respublikası üçün vacib əhəmiyyətə, kilid rola malik dövlətdir. Gəlin Azərbaycan İsrail münasibətlərini iki ölkə arasındakı diplomatik əlaqələr, onların bu əlaqələrin qurulmasında maraqları və hərbi-texniki əməkdaşlıq kontekstində nəzərdən keçirək.

**Azərbaycan Respublikası və İsrail Dövləti arasındakı diplomatik əlaqələr**

İsrail Dövləti 25 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olmuş, 7 aprel 1992-ci ildə isə ölkələr araslnda diplomarik münasibətlər qurulmuşdur. 1993-cü ildə İsrail Dövlətinin Bakıda 2023-cü ildə isə Azərbaycan Respublikasının Tel-Əvivdə səfirliyi fəaliyyətə başlamışdır. Uzun müddət rəsmi Bakı öz səfiriliyini açmamasına baxmayaraq dövlətlər arasında daim sıx təmaslar saxlanılmış və bu əlaqələr strateji əməkdaşlıq səviyyəsinədək yüksəlmişdir. Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyi fəaliyyətə başlayanadək bəzi mənbələrdə qeyd edilənlərə görə bu funksiyaları Azərbaycan Hava Yollarının İsraildəki ofisi icra etmişdir.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı münasibətlərin daim yüksələn xətt üzrə

inkişaf etməsində azərbaycanlılar və yəhudilər arasında tarix boyu sülh, əmin-amanlığın hökm sürməsi, Azərbaycan cəmiyyətində antisemitizmin olmaması böyük rol oynamışdır. Hazırda Azərbaycanda əsas 3 yəhudi icması məskunlaşmışdır: Quba rayonu və Bakıda yaşayan dağ yəhudiləri, Bakıda yaşayan Aşkenazi yəhudiləri və Gürcüstanla həmsərhəd ərazilərdə yaşayan Gürcüstan (Ebrael) yəhudiləri. Dağ yəhudiləri Azərbaycanda daha qədim dövrlərdən məskunlaşmış, aşkenazi – Avropa yəhudiləri və Gürcüstan yəhudiləri isə 18-19-cu əsrlərdən Azərbaycan köçməyə başlamışlar.

İki dövlət arasında strateji əməkdaşlığın formalaşmasına, diplomatik əlaqələrin dərinləşməsinə tarixi bağlar, sülh şəraitində birgə yaşayışla yanaşı dövlətlərin maraqları da böyük ölçüdə təsir etmişdir. Sovet İttifaqı süqut etdikdən sonra İsrail Dövləti yeni müttəfiqlər tapmalı, regionda öz təhlükəsizliyini yenidən şəkilləndirməli, ona düşmən - İrandakı rejimə qarşı postsovet məkanında yeni müttəfiqlər tapmaq zərurətində idi. Azərbaycan Respublikasının isə yarandığı vaxtdan əsas məqsədlərindən biri olan müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü bərpa etmək kimi siyasi proritetləri bu iki dövləti bir-birinə daha da yaxınlaşdırırdı.

Diplomatik əlaqələr qurulduğu ilk vaxtdan etibarən ölkələr arasında çoxsaylı yüksək səviyyəli görüşlər keçirilmişdir. Rəsmi Bakının islam dünyası ilə balanslaşdırılmış siyasət yeritməsinin və həmrəylik nümayiş etdirməsinin siyasi nəticəsi olaraq, 2020-ci ilədək yəhudi dövləti ilə görüşlər əsasən İsrail Dövlətindən olan heyətlərin Azərbaycana səfərləri sayəsində baş tutmuşdur. Dövlət başçıları arasında ilk rəsmi görüş 1997-ci ildə baş nazir B.Netanyahunun Bakıya səfəri zamanı onunla, prezident H.Əliyev arasında olmuşdur. Daha sonra növbəti bu səviyyəli görüş prezident İ.Əliyevlə baş nazir B.Netanyahu arasında sonuncunun 2016-cı ildə Bakıya təkrar səfər etdiyi zaman reallaşmışdır. Azərbaycandan sonra baş nazir B.Netanyahunun Qazaxıstana səfər etməsi məntiqi olaraq İsrail Dövlətinin postsovet məkanında apardığı siyasətin yeni mərhələsi kimi dəyərləndirilə bilər.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında qarşılıqlı görüşlərin azlıq təşkil etməsinə baxmayaraq tərəflər arasında imzalanan sənədlər, beynəlxalq arenada qarşılıqlı dəstək ölkələr arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu göstərirdi. 2016-cı ildə prezident İ.Əliyevlə baş nazir B.Netanyahu arasındakı görüşün nəticəsi olaraq tərəflər arasında “Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinini Hökuməti arasında standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi və metroloqiya sahələrində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinini Hökuməti arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Saziş”, “Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya”, “Azərbaycan Respublikasının Hökuməti ilə İsrail Dövlətinini Hökuməti arasında Birgə Komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu” imzalanmışdır [19].

Yuxarıda qeyd edilənlərdən əlavə 2009-cu ildə Ş.Peres, 2010, 2012, 2014-cü illərdə xaici işlər naziri A.Liberman dəfələrlə Bakıda rəsmi səfərlərdə olmuşlar. Azərbaycan Respublikası tərəfdən isə xarici işlər nazirləri E.Məmmədyarov, C.Bayramov, prezidentin xarici siyasət üzrə komәkçisi İsraildə səfərlərdə olmuş, müxtəlif anlaşma və müqavilələrin imzalanmasında iştirak etmişlər. Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı münasibətlərə müsbət təsir edən amillərdən biri də Azərbaycan Respublikasının rəhbərliyinin yəhudi icmaları ilə olan sıx təmasları və müxtəlif vaxtlarda keçirdikləri görüşlərdir. 2017-ci ildə yəhudi təşkilatının nümayəndələri ilə Nyu-yorkda keçirilən görüşdə prezident İ.Əliyev bunu xüsusilə vurğulamış, Azərbaycan Respublikasının İsrail Dövləti arasındakı əlaqələrin inkişafından məmnunluğunu ifadə etmişdir.

Hal-hazırda Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı diplomatik əlaqələrin yüksək səviyyədə olması iki ölkə arasında demək olar ki, bütün sahələrdə əməkdaşlığın inkişafına zəmin yaratmış, münasibətlərin strateji səviyyəyə yüksəlməsində mühüm rol oynamışdır.

**Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı münasibətlərdə Azərbaycan Respublikasının maraqları**

Azərbaycan Respublikası təhlükəsizlik siyasi və iqtisadi baxımdan beynəlxalq aləmdə,

regionda özünü əminlikdə hiss etmək üçün təbii olaraq ona dost münasibət bəsləyən, nüfuzlu ölkələrlə münasibətlərini dərinləşdirməkdə maraqlıdır. Belə olan halda yeni tərəfdaş ölkələr axtarışında olan rəsmi Bakı üçün bu boşluğun doldurmasında İsrail Dövləti ideal və real namizəddir.

Azərbaycan Respublikası ilə İsrail Dövlətinin əlaqələrinin dərinləşməsində ikinci vacib faktorlardan biri isə "İran amilidir". İran İslam Respublikasının Azərbaycan Respublikasının müstəqilliqyini tanıyan ilk dövlətlərdən biri olmasına, başlanğıcda hər iki ölkədə yaşayan azərbaycanlıların təmaslarını dəstəkləməsinə baxmayaraq qısa müddət sonra rəmi Tehran bu istiqamətdə öz siyasi kursunu 180 dərəcə dəyişmiş, 44 günülk müharibədən sonra isə münasibətlərdə ciddi gərginliklər yaşanmışdır. Bakının İranın dəstəklədiyi və arzu etdiyi dini propaqandanın təsirinə düşməməsi, yeritdiyi siyasi kursda dünyəvi dövlət modelini seçməsi ilə burada şiəliyin, dini radikalizmin yayılmasında öz imkanlarının məhdudlaşdırıldığını görən Tehran daha ehtiyatlı siyasət yeritməyə və region ölkələri ilə bərabaər hüquqlu münasibət adı altında zamanla Ermənistanı dəstəkləməyə başlamış, hazırda da bunu davam etdirməkdədir. Tehran Azərbaycan Respublikasının 44 günlük müharibədəki qələbəsini İran Azərbaycanında qeyri-stabilliyin yaranmasına, milli oyanışın baş qaldırmasına ən ciddi və potensial səbəb olaraq görür. Azərbaycanın qərb dövlətləri, xüsusilə ABŞ, İsrail dövləti ilə əlaqələrinin genişlənməsi rəsmi Tehranın Bakıya təzyiqinin yüksəlməsinə səbəb olur və bəzi hallarda İran rəsmiləri buna dilə gətirməkdən belə çəkinmirdi. 2001-ci ildə Xəzər dənizində neft-qaz infrastrukturunun mühafizəsi üzrə Azərbyacanın ABŞ ilə birlikdə keçirdiyi hərbi-dəniz təlimləri, 2021-ci ildə isə İranın Azərbyacanla sərhəddə təşkil etdiyi geniş miqyaslı hərbi təlimlər iki ölkə arasındakı ciddi fikir ayrılıqlarının görünən təzahürü kimi xarakterizə edilə bilər. Daha sonra ölkələrin xarici siyasət kursunda müəyyən yumşalmalar müşahidə edilsə də, Azərbaycan Respublikası təzyiqlər qarşısında öz xarici-siyasi kursundan geri addım atmamış, İsrail Dövləti ilə sıx əlaqələrdən imtina etməmişdir.

Azərbaycan Respublikasının İsrail Dövləti ilə münasibətlərində rəsmi Bakı üçün əhəmiyyətli olan digər bir məqam dünyadakı və xüsusilə ABŞ-dəki yəhudi lobbisinin gücündən Azərbaycana qarşı xaricdə aparılan fəaliyyətlərin zərərsizləşdirilməsində istifadə etmək, onun təsirindən ölkənin maraqlarına uyğun faydalanmaqdır. Dünyadakı yəhudi lobbisinin Bakını dəstəkləməsində Azərbaycanda yaşayan və buranı öz vətəni hesab edən 30000-dək yəhudinin, həmçinin İsraildə yaşayan Azərbaycanı öz ikinci ana yurdu hesab təqribən 50000-dək yəhudi əsilli İsrail vətəndaşlarının rolu danılmazdır. İsrail vətəndaşları olan bu şəxslər Azərbaycanla əlaqələrini qırmır və Azərbaycan yönümlü fəaliyyətlərini davam etdirirlər. Onlar tərəfindən 2020-ci ildə Petax-Tikva şəhərində 44 günlük müharibədə rəsmi Bakının mövqeyini dəstəkləyən nümayişin keçirilməsi də buna əyani sübutdur. Bundan əlavə Azərbaycanda fəaliyyət göstərən çoxsaylı yəhudi icma və təşkilatlarının (Azərbaycan-İsrail cəmiyyəti, Dağ yəhudilərinin xeyriyyə fondu və s.) iki ölkə arasında müsbət əlaqələrin saxlanılmasında mühüm rol oynadığı danılmazdır. Özünü azərbaycanlı hesab edən ölkə xaricində yaşayan yəhudi əsilli iş adamlarının Azərbaycan Respublikasının iqtisadiyyatına faydası, onların müxtəlif iqtisadi layihələri maliyyələşdirməsində və xeyriyyəçilik fəaliyyətlərində iştirakları mənbələrdə mövcuddur [20].

İsrail şirkətlərinin istehsal etdiyi yüksək texnoloji avadanlıqlar və ən müasir silahların Azərbaycana idxal edilməsi və bununla da Azərbaycan-Ermənistan münaqişəsində əksər qərb dövlətlərinin silah satışında Bakıya tətbiq etdiyi məhdudiyyətlərin əhəmiyyətli dərəcədə neytrallaşdırılmasına nail olmaq Azərbaycanın əhəmiyyətli uğurlarındandır. Bu məqamda Rusiyanın güzəştli şərtlərlə, bəzi hallarda isə maliyyə qarşılığı gözləmədən Ermənistanı silahlandırdığı nəzərə alındıqda Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı əlaqələrin hərbi-texniki əməkdaşlıq vektorunun nə dərəcədə Bakı üçün önəmli olduğu bir daha ortaya çıxır.

**Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı münasibətlərdə İsrail Dövlətinin maraqları**

Fələsitin məsələsində beynəlxalq aktorların tutduğu mövqe, İranla son dərəcə gərgin vəziyyət, qonşu dövlətlərlə qeyri-dost mühit, İsrail Dövlətinin yerləşdiyi regionda özünü təhlükəsizlikdə hiss etməməsi rəsmi Tel-Əvivi xarici siyasət kursuna korrektələr etməyə, regionda və xüsusilə müsəlman

dövlətləri arasında ən azından İsrail Dövlətinə loyal münasibət göstərən tərəfdaşlar əldə etməyə, islam aləmində ona qarşı təcriddən yayınmağa vadar edirdi. Keçmiş postsovet məkanındakı dövlətlərlə ciddi siyasi, iqtisadi əlaqələr qurmaq, bu məkanda siyasi təsir sahəsini artırmaq, Yaxın Şərqdəki bəzi dövlətlərlə imzalanmış İbrahim anlaşmalarını bu baxımdan atılmış vacib addımlardan hesab etmək olar. Bu yolla İsrail Dövləti ona yaxın regionda yerləşən və islam dünyasına aid İran, İraq, Suriya kimi qeyri-stabil, dini radikalizmin geniş vüsət aldığı müsəlman dövlətlərinin ətrafında rəsmi Tel-Əvivə münasibətdə neytral və ya dost ölkələrdən ibarət qoruyucu (bufer) qurşaq yaratmaq istəyirdi. Bu cür starateji həmlə yəhudi dövlətinə potensilal rəqiblərə dolayı yolla təsir etmə imkanını qazandırmaqla yanaşı, dünyaya İsrail Dövləti ilə müsəlman ölkələri arasında normal əlaqələrin mümkünlüyünü nümayiş etdirmək baxımından Tel-əviv üçün mühüm əhəmiyyət kəsb edir.

21-ci əsrin ilk onilliyində İsrail Dövlətinin xarici siyasətində postsovet məkanındakı dövlətlərə maraq, diqqət artırılmış, 2008-ci ildə İsrail Dövlətinin Xairici İşlər Nazirliyində Cənubi Qafqaz və Orta Asiya dövlətləri ilə əlaqələrə cavabdeh Avrasiya-2 adlı altqurum yaradılmışdır. Belə bir mühitdə isə İsrail Dövləti ilə starateji əlaqələr qurmağa çalışan rəsmi Bakı Tel-Əvivin xarici siyasətində prioritet olmağa başlayır. İranın Cənubi Qafqazda, Orta Asiyada artan təsirinin qarşısının alınmasında, onun Rusiya ilə beynəlxalq iqtisadi dəhlizə (Şimal-Cənub) cəlb edilməsinin ləngidilməsi və ya zəiflədilməsində Azərbaycan Respublikası İsrail Dövləti üçün çox vacib ölkə idi. Bu əməkdaşlıq sözsüz ki, Tehranı qane etmir, sonuncu tərəfindən rəsmi Bakıya qarşı ritorikada daha sərt ifadələr işlədilirdi. İran rəsmiləri çıxışlarında Azərbaycan Respublikasının ərazilərinin İsrail kəşfiyyatı tərəfindən İrana qarşı istifadə olunmasını qeyd etmələri bunu bir daha sübut edir.

Azərbaycan Respublikası ilə İsrail Dövlətinin münasibətlərində antiiran vektoru əsas olmasa da mühüm istiqamət sayıla bilər. "Wikileaks"də dərc edilən ABŞ səfirliyinin məsləhtçisinin diplomatik notalarının birində yazırdı: "İsrail Dövləti ilə Azərbaycan Respublikasının münasibətləri praqmatizm və qarşılqlı oalaraq ölkələrin prioritetlərininə hörmətlə yanaşılma üzərində qurulmuşdur. İsrail Dövlətinin əsas məqsədi Azərbaycanı İrana qarşı müttəfiq, kəşfiyyat platrforması və silah ixracında bazar kimi istifadə etməkdir" [21].

Əhalisinin əksəriyyətini islam dininə inanan insanlar təşkil edən ölkələr ilə əlaqələrin inkişaf etdirilməsi İsrail Dövlətinin islam dünyası ilə münasibətlərində yeni bir mərhələdir. Azərbaycan Respublikası ilə belə yaxın əlaqələrin qurulması İsrail Dövlətinin İranla qarşıdurmasında onun mövqelərinin güclənməsinə səbəb olduğu şübhəsizdir.

İsrail Dövləti üçün Azərbaycan Respulikası vacib və etibarlı ticarət tərəfdaşıdır. Rəsmi Bakı İsrailə idxal edilən neft məhsullarının 40 faizini təmin edir [22]. Bu səbəbdən İsrail Dövləti Azərbaycanda ölkə daxilində stabillikdə, dövlətin özünü, təbii ehtiyatlarını müdafiə etmə iqtidarında olmasında, istehsal qabiliyyətinin qorunub saxlanılmasında maraqlıdır.

### Azərbaycan Rsepublikasının İsrail Dövləti ilə hərbi-texniki əməkdaşlığı

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında ikitərəfli münasibətlərdə siyasi sahədə olduğu kimi hərbi-texmiki sahədə də əməkdaşlıq mühüm yer tutur. Bütün digər dövlətlərdə olduğu kimi rəsmi Bakı və Tel-Əviv arasında da təhlükəsizlik və hərbi sahədə əməkdaşlıq müəyyən səbəblərdən əsasən gizli xarakter daşıyır və adətən geniş ictimayyət üçün məxfi saxlanılır. Cəmiyyətə yalnız bəzi konkret hallar üzrə, dövlətlərin razılığı əsasında informasiya verildiyindən bu istiqamət üzrə səhih analiz aparılması olduqca çətindir. Bu mövzuda təhlillər üçün yalnız açıq mənbələrdə qeyd edilən vacib məqamları öyərənməklə Azərbaycan Respublikası ilə İsrail Dövləti arasındakı hərbi-texniki əməkdaşlıq haqqında müəyyən məlumat almaq olar. İki dövlət arasında ilk belə əməkdaşlıq 2004-cü ildə İsrail Dövlətinin lisenziyası əsasında Türkiyədə istehsal edilən silahların Azərbaycana gətirilməsi ilə başlamışdır. Daha sonra 2008-ci ildə İsrailin "Tadiran Communications" şirkəti Azərbaycana rabitə avadanlıqlar, İsrael Millitary İndustry (İMİ) şirkəti isə müxtəlif raket və atəş sistemlərini ixrac etmiş həmçinin, Azərbaycan Respublikası silahlı qüvvələrində sovet (Rusiya) istesalı mövcud "Град" yaylım atəşli reaktiv sistemlərin (YARS) modernləşdirilməsini həyata keçirmişdir [23].

2008-ci ildən sonra İsrail Dövləti Azərbaycana təkcə müdafiə deyil hücum silalarının da

ixracını arıtırmağa başlamış, “Lynx” YARS-ni, “Aerostar”, “Hermes-450” PUA-larını, “Sufa” zirehli transportyorlarını, 155 mm-lik “Atmos-2000” özüyeriyən artilleriya qurğularını, “Spike-MR” raketlərini Azərbaycan silahlı qüvvələrinə təhvil vermişdir. Bu dövrdə rəsmi Bakının aldığı silah-sursatların arasında gəmi əleyhinə “Gabriel-5” raketlərinin olması Azərbaycanın dənizdə də öz maraqlarını müdafiə üçün ciddi tədbirlər görməsinin və bunun da əsasən İran və Rusiyadan ola biləcək təhdidlərə qarşı yönəldiyini təxmin etmək çətin deyil.

İsrailin “Elbit Systems” hərbi sənaye şirkəti 2009-cu ildə Azərbaycanda öz rəsmi nümayəndəliyini açmış, 2010-cu ildə Azərbaycan Silahlı Qüvvələrindəki T-55, T-72 tankları və БМП – 2 döyüş maşınlarını modernizə etməyə başlamış qısa bir müddətdə bu texnikaların tamamilə yeni atəşi idarəetmə, müşahidə sistemləri və zireh örtüyü ilə təchiz edilməsini təmin etmişdir. Görülmüş modernizasiya işləri sayəsində texnikaların döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə yüksəlmişdir. Şirkət həmin il rəsmi mənbələrdə tankların modernizasiyası üçün bir Asiya ölkəsi ilə 56 milyon dollarlıq müqavilə imzaladığını elan etmiş, lakin əməkdaşlıq etdiyi dövlətin adını bildirməmişdir [24]. Yuxarıda qeyd edilənləri nəzərə aldıqda bu ölkənin Azərbaycan Respublikası olma ehtimalı çox yüksəkdir. Bundan əlavə əməkdaşlıq nəticəsində Azərbaycan “Elbit Systems” şirkətindən “Atmos-2000” özüyeriyən artilleriya qurğuları, “SkyStriker” kamikadze PUA-larını almış, bunları hərbi potensialının gücləndirilməsində istifadə etmişdir. 2018-ci ildə ADEX sərgisi zamanı şirkət 130 mm-lik M46 sovet topu bazasında hazırlanmış “Atmos M46” 6x6 özüyeriyən artilleriya qurğularını təqdim etmişdir ki, bu da onun sıx əlaqələrə malik olduğu Azərbaycanın SSRİ-dən qalma ehtiyatları hesabına özüyeriyən artilleriya qurğuları arsenalını təkmilləşdirməsinə imkanı verirdi [25].

İsrailin Aeronautics Defense Systems şirkəti (hal-hazırkı İAİ – İsrael Aerospace İndustries) ilə birlikdə Azərebaycanın “Azad Systems Co”yerli şirkəti təsis edilmiş və onlar tərəfindən “Orbiter-2M” və “Aerostar” PUA-ları istehsal olunmağa başlamışdır. İlkin olaraq 60 ədəd bu tip PUA istehsal ediləcəyi elan olunsa da daha sonra açıq mənbələrdə onların Azərbaycan Silahlı Qüvvələrindəki sayı barədə məlumata rastlanılmır. İlk dəfə bu model PUA 26 iyun 2006-cı ildə Bakıda keçirilən hərbi paradda geniş ictimayyətə nümayiş olunmuşdur. 2014-cü ildə isə şirkət lisenziya əsasında Azərbaycanda istehsal olunan “Orbiter-3” taktiki-kəşfiyyat, 2016-cı ildə isə kamikadze “Zərbə-1K” PUA-larını təqdim etmişdir. Qeyd edilən bütün PUA-lar 44 günlük müharibədə döyüş əməliyyatları zamanı fəal tətbiq olunmuşdur. Təkcə 2012-ci ildə İAİ (İsrail Aerokosmik Sənayesi) şirkətinin Azərbaycana 1.6 milyard dollarlıq əsasən pilotsuz uçuş aparatları və peyk sistemlərindən ibarət məhsul ixrac etdiyi məlumdur.

Azərbaycan Respublikası ilə İsrail Dövləti arasında hərbi əməkdaşlığın geniş sahəni əhatə etməsi heç kimə sirr deyil. Yuxarıda qeyd edilənlərə əlavə olaraq İsrael Millitary İndustries şirkəti ilə əməkdaşlıq nəticəsində Azərbaycan Silahlı Qüvvələri “Kamaz-6350” yük maşını bazasında quraşdırılan “Lynx” YARS qurğuları əldə etmiş və onlar 130-150 km uçuş məsafəsinə malik “Extra” raketləri ilə təchiz olunmuşdur [26].

2016-cı ildə İsrail Dövlətinin baş naziri B.Netanyahunun Bakıya səfəri zamanı prezident İ.Əliyevlə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığa dair müqavilə imzalanmış, ictimaiyyətə açıqlanmasa da bu müqavilə əsasında iki ölkə arasında çoxtərəfli təhlükəsizlik məslələrinin razılaşdırıldığı bilinir. Daha sonra Azərbaycan Respublikası prezidentinin ölkələrimiz arasında təqribən 5 milyard dollarlıq yeni silah anlaşması imzalandığını qeyd etməsi bunun əyani sübutudur.

2018-ci ildə Azərbaycan İsraildən bəzi mütəxəssislərin fikirlərinə görə Rusiyanın “İsgəndər” raketlərinin analoqu olan 4 ədəd “Lora” tipli əməliyyat-taktiki raket kompleksi almış, ilk sınaqlar 2020-ci ilin iyununda keçirildikdən sonra və bu raketlər 44 günülk müharibə zamanı fəal tətbiq etmişdir. Qeyd edilməlidir ki, bu raket sistemlərini İsrail Dövləti Azərbaycandan başqa heç bir xarici ölkəyə ixrac etməmişdir [27].

2013-2019-cu illər ərzində İsraildən Azərbyacana “OPV” tipli 6 patrul gəmisi, “Şaldağ” tipli 6 ədəd patrul qayığı, 260 vahid tankəleyhinə “Spike LR”, 350 vahid “Spike NLOS” raketləri, və müxtəlif növ tankəleyhinə silahlar, PUA-lar ixrac edilmişdir [28]. Qeyd edilənlərdən əlavə Millitary balance 2021-ci il mənbələrinin məlumatına əsasən, Azərbaycan İsrail istehsalı olan “Cardom”, “Spear MK2” minaatan komplekslərinə, “Barak-LRAD”, “Barak-MRAD” raketdən müdafiə

sistemlərinə malikdir.

Stokholm sülh problemlərinin tədiqiq institutunun (SİRPİ) məlumatlarına görə 2011-2020-ci illərdə Azərbaycana xaicdən idxal edilən silahların həcmində İsrail şirkətlərinin payı 27%, 2016-2020-ci illər ərzində isə 69% olmuşdur. SİRPİ-nin hesabatlarında açıq mənbələrdə İsrail istehsalı silah və texnikaların Bakı tərəfindən alınması barədə bir çox məlumatlar mövcud olsa da, bu silahların sayına dair mənbələrdə hər hansı səhih informasiyanın olmaması qeyd edilmişdir.

## NƏTİCƏ

"Azərbaycan Respublikası ilə İsrail Dövlətinin münasibətlərinin hərəkətverici motivasiyasının əsasının iqtisadi qarşılıqlı mənfəət, yoxsa İranın hər iki dövlət üçün ümumi təhdid olmağa davam etməsidir...?" sualı öz aktuallığını qoruması iki dövlət arasındakı əlaqələrin aysberqlə müqayisəsinin mübaliğə olmadığının göstəricisidir. 2021-ci ildə İran və Azərbaycan arasında ciddi anlaşılmazlıq meydana gədi. İran Azərbaycan Respublikasının sərhədləri yaxınlığında (xüsusilə işğaldan azad edilən sərhəd rayonlarına qonşu ərazilərdə) genişmiqyaslı hərbi təlimlər keçirməklə sərt mesaj verməyi hədəfləmiş və bununla öz tərəfini açıq bəyan etməklə rəsmi Bakını təəccübləndirməyi bacarmışdı. Həmin dövrdə İran Azərbaycan Respublikası və İsrail Dövləti arasındakı yaxınlığı özü üçün ciddi təhlükə saydığını bəyan etməklə kifayətlənməmiş, İslam İnqilabı Keşikçiləri Korpusunun Quru Qoşunlarının komandanı general-mayor M.Pakpur mətbuata müsahibəsində "İran onun qonşularının saxta sionist rejimin sığınacağı və bazası olmağa və təhlükəsizlik əleyhinə fəaliyyətlərinə dözməyəcək" kimi ifadələr işlətməsinə şərait yaratmışdır [29].

İran Azərbaycan tərəfdən verilən açıqlamalara məhəl qoymur, hesab edir ki, rəsmi Bakı öz ərazilərindən İran əleyhinə istfadə edilməsi üçün İsrailə geniş taktiki əməliyyat imkanları verir. 2018-ci ildə Tehran İranın nüvə proqramına dair məxfi məlumatların Azərbaycandakı kəşfiyyat imkan və qüvvələr hesabına əldə etdiyinə görə İsrail Dövlətini ittiham etmişdir. Qeyd edilməlidir ki, İranın belə sərt və birtərəfli çıxışlarının əks-təsir doğuracağı – İsrail Dövləti ilə Azərbaycan Respublikası arasındakı siyasi və hərbi əməkdaşlığın daha da genişlənərək dərinləşəcəyi, həmçinin rəsmi Tel-Əvivin Azərbaycandakı mövqelərinin güclənməsi və Cənubi Qafqazda təsirin artmasına gətirib çıxaracağı ehtimalı qüvvətlənmiş və reallığa çevrilməyə başlamışdır.

Azərbaycan-İsrail siyasi-hərbi əməkdaşlığı ən yüksək səviyyədədir və 44 günülük müharibədən sonra bu istiqamətdə qarşılıqlı əlaqələr daha da dərinləşmişdir. Azərbaycan Respublikasının İsrail Dövlətində səfirliyinin fəaliyyətə başlaması ilə strateji səviyyədə olan bu əməkdaşlıq növbəti mərhələyə qədəm qoymuşdur. 44 günlük müharibə və hal-hazırda davam edən Rusiya-Ukrayna müharibəsinin nəticlərinin hər iki dövlət tərəfindən dərindən təhlil edildiyi, növbəti qarşıdurmalarda silahlı qüvvələrin daha hazırlıqlı və yeni texnolji avadanlıq, silah-sursatla təchizat baxımından tam təmin olunmuş, peşəkar müasir güc elementi olması üçün ölkələrin qarşılıqlı zəruri addımlar atdığını ehtimal etmək çətin deyil.

Qeyd edilənlərin 2022-2025-ci illər ərzində İsrail Dövlətinin hərbi hava limanlarından havalanıb Bakıya enən yük təyyyarələrinin artan statistikasından da görmək mümkündür. 2025-ci ildə bu starateji tərəfdaşlığa Aralıq dənizindəki İsrail Dövlətinə məxsus karbohidrogen yataqlarınının işlənilməsində Azərbaycan şirkəti olan SOCAR-la bağlanmış müqavilə də əlavə olunduğunu nəzərə alınarsa starateji əməkdaşlığın növbəti mərhələlərə keçəcəyi, Azərbaycan Respublikasının iqtisadi, müdafiə qabiliyyətinin yüksəldilməsində İsrail Dövlətinin rolunun güclənəcəyi şübhəsizdir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Cankara P. Ö., Cankara Y. İran ve Ermenistan gölgesinde İsrail'in Azerbaycan ile stratejik ilişkileri // Uluslararası Afro-Avrasya araştırmalar dergisi. 2022. № 7 (13). Səh. 1–21.
2. Çiçekçi C. İkinci Dağlık Karabağ Savaşı Işığında İsrail-Azerbaycan İlişkileri: Yapısal ve Analitik Bir Çerçeve // Güvenlik Çalışmaları Dergisi. 2021. № 2 (23). Səh. 267-285.
3. Аватков В. А. Специфика геополитики Азербайджанской Республики // Постсоветские исследования. 2021. № 2 (4). Səh 104–108.
4. Алексеев Н. Н., Бабиров И. М. Азербайджано-иранские отношения: трансформация внешней политики Азербайджана при президенте И. Г. Алиеве // Конфликтология / nota

bene. 2020. №3. Səh. 16–27.

5. Виловатых, А. В. Безопасность России и военно-политические процессы в Кавказском регионе // Вестник МГИМО Университета. 2015. № 3(42). С. 85–93.
6. Костенко Ю. И. «Новая периферийная стратегия» Израиля // Вестник МГИМО. 2017. №1 (52). Səh. 101–118.
7. Спаткай Л. Беспилотники в боевых действиях в Нагорном Карабахе. М., 2021
8. Anna Geifman and Dima Course, Israel and Azerbaijan: Geopolitical Reasons for Stronger Ties, BESA Center Perspectives Paper No. 208, July 15, 2013.
9. Brenda Shaffer, "Israel's Role in the Second Armenia-Azerbaijan War and Its Implications for the Future", Central Asia-Caucasus Institute & Silk Road Studies Program, Joint Center, September 9, 2022.
10. Gallia Lindenstrauss, "Opening Azerbaijan's Embassy in Israel: The Right Way to Strengthen Ties", No. 1665, November 30, 2022.
11. Lindenstrauss G. Israel-Azerbaijan: despite the constraints, a special relationship Strategic Assessment. 2015. № 4 (17). Səh. 69–79.
12. Military balance // The international institute for strategic studies. London, 2021. Səh. 180-182.
13. Murinson A. The Ties between Israel and Azerbaijan // Mideast Security and Policy Studies. № 110. Səh. 14-15.
14. Maxime Gauin and Alexander Murinson, "Baku to the Future: Azerbaijan, not Armenia is Israel's True Ally," Haaretz, October 29, 2014.
15. WikiLeaks, https://wikileaks.org/cable/2009/01/09BAKU20.html.
16. "Azərbaycan-İsrail iqtisadi əməkdaşlığı müzakirə edilib," Ministry of Economy, Republic of Azerbaijan, April 29, 2021. Accessed at: https:// www.economy.gov.az/article/azerbaycan-i-srail-iqtisadi-emekdashligi-muzakire-edilib/31644
17. "Azerbaijan seeks to expand bilateral trade with Israel", Israel Hayom reprinted in JNS April 22, 2021. Accessed at: https://www.jns.org/azerbaijan-seeks-to-expand-bilateral-trade-with-israel/
18. "Azerbaijan's Defense Minister Visits Israel, as Bilateral Ties Grow Stronger," Eurasia Daily Monitor, Jamestown Foundation, September 25, 2017. Accessed at: https://jamestown.org/program/azerbaijans-defense-minister-visits-israel-as-bilateral-ties-grow-stronger/
19. Elektron resurs: https://president.az/az/ articles/ view/22034.
20. Elektron resurs: https://apa.az/en/ xeber/domestic-news/yevda-abramovjewish-lobby-is-always-with-azerbaijan-interview288413.
21. Elektron resurs: https://ww.jpost.com/international/how-can-israel-navigate-the-divide-between-azerbaijan-and-armenia-636953.
22. Elektron reurs: https:// ww.jpost.com/ israel-news/azerbaijani-ambassador-border-hostilities-may-harm-israeli-oil-supplies-635851.
23. Elektron resurs: https://interaffairs.ru/news/show/30249.
24. Elektron resurs: https://lenta.ru/news/2010/10/18/t72.
25. Elektron resurs: https://adex.az/en-apennews/6957.41.html.
26. Elektron resurs: https://svpressa.ru/war21/article/149342.
27. Elektron resurs: https://life.ru/p/1348451.
28. Elektron resurs: https://fmes-france.org/israel-azerbaijan-an-alliance-in-search-of-renewal.
29. Elektron resurs: https://eurasianet.org/iran-holds-war-games-near-azerbaijani-border.

**РЕЗЮМЕ**

**РОЛЬ ВОЕННО-ПОЛИТИЧЕСКОГО СОТРУДНИЧЕСТВА В ОТНОШЕНИЯХ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ГОСУДАРСТВОМ ИЗРАИЛЬ**

**Ceyhun Səidov**

В статье рассматривается сущность военно-политических отношений между Азербайджанской Республикой и Государством Израиль, факторы, влияющие на формирование этих отношений, и, в частности, влияние и реакция нашего южного соседа – Исламской Республики Иран – на эти отношения. Проанализированы геополитические изменения, вызванные 44-дневной войной и российско-украинской войной в регионе, а также военные учения, проводимые Ираном на границе, резкие политические заявления и обвинения, направленные против азербайджано-израильских отношений в контексте напряженности между Ираном и Азербайджаном в 2021 году.

В статье также рассматриваются азербайджано-израильские отношения в контексте дипломатических отношений между двумя странами, заинтересованность обеих сторон в установлении этих отношений и военно-технического сотрудничества. Прогнозируются дальнейшие перспективы и вероятные направления развития этих отношений.

**Ключевые слова:** *Азербайджан, Израиль, стратегическое партнерство, политические интересы, военно-промышленный комплекс, военно-техническое сотрудничество, Южный Кавказ.*

**SUMMARY**

**THE ROLE OF POLİTİCAL-MİLİTARY COOPERATİON IN THE RELATIONS BETWEEN THE REPUBLİC OF AZERBAIJAN AND THE STATE OF İSRAEL**

**Джейхун Саидов**

The article examines the essence of the military-political relations between the Republic of Azerbaijan and the State of Israel, the factors influencing the formation of these relations, and in particular the influence and reaction of our southern neighbor, the Islamic Republic of Iran, on these relations. The geopolitical changes caused by the 44-day war and the Russia-Ukraine war in the region, as well as the military exercises conducted by Iran on the border, harsh political statements and accusations directed against Azerbaijan-Israel relations in the context of the tension between Iran and Azerbaijan in 2021, were analyzed.

The article also examines Azerbaijan-Israel relations in the context of diplomatic relations between the two countries, the interests of both sides in establishing these relations, and military-technical cooperation, and predicts the future prospects and probable development directions of these relations.

**Keywords**: *Azerbaijan, Israel, strategic relationship, political interests, military-industrial complex, military-technical cooperation, South Caucasia*